MahadSunnah

هيثم سرحان

مواقيت الصلاة

Namazın vaxtları

Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri

Azərbaycan dili

اللغة الأذرية



Tərcümə edən: İlqar Eyvazoğlu

ALSARHAAN.COM

MAHADSUNNAH.COM

Gündüz və gecədə beş vaxt namaz var

Uca Allah namazı bəndələrinə vacib buyurmuş və onların hər biri üçün müəyyən və məlum vaxt təyin etmişdir. Onların vaxtı gəlməmiş namazı qılmaq qəbul olunmaz. Uca Allah buyurur:

قال تعالى: ﴿إِنَّ ٱلصَّلَوٰةَ كَانَتۡ عَلَى ٱلۡمُؤۡمِنِينَ كِتَٰبٗا مَّوۡقُوتٗا ١٠٣﴾ [النِّسَاء : ١٠٣]

“Çünki namaz möminlərə müəyyən olunmuş vaxtlarda vacib edilmişdir”.[1]

1. Bu namazlardan birincisi zöhr namazıdır.

Zöhr namazı günəşin zirvəsindən, yəni səmanın ortasından qərbə doğru meylindən sonra başlayır. Onun vaxtı hər şeyin kölgəsi uzunluğuna bərabər olana qədər uzanır.

Şiddətli İstilik olmadıqca, vaxtının əvvəlində tezləşdirib qılmaq müstəhəbdir. Şiddətli istilik olarsa, hədisdə gəldiyi kimi istilik kəsilənə qədər gecikdirmək müstəhəbdir.

Peyğəmbər ﷺ buyurub:

“Əgər Şiddətli istilik olarsa, namazı hava soyuyanda qılın, çünki Şiddətli istilik cəhənnəmin istisindəndir”[2]

2. Bu namazlardan ikincisi əsr namazıdır.

[1] ən-Nisa surəsi, 103-cü ayə
[2] Buxari və Muslim

Əsr namazı orta namazdır. Uca Allah bunu qeyd edərək demişdir:

قال تعالى: ﴿حَٰفِظُواْ عَلَى ٱلصَّلَوَٰتِ وَٱلصَّلَوٰةِ ٱلۡوُسۡطَىٰ وَقُومُواْ لِلَّهِ قَٰنِتِينَ ٢٣٨﴾

"Namazları və (günortadan sonrakı) orta namazı qoruyun və Allah qarşısında mütiliklə durun". [3]

Əsr namazının iki vaxtı var:

1) İxtiyari vaxtı: Bu günorta vaxtının sonundan günəşin saralmasına qədərdir. Belə ki, o dəyişir və yerdə və divarlarda sarılıq görünür. Bu namazı bu vaxta tezləşdirib qılmaq sünnətdir.
2) Zərurət vaxtı: Bu da günəşin saralmasından batmasına qədər olan vaxtdır. Əsr namazını zərurətdən başqa həmin vaxta gecikdirmək caiz olmadığı üçün ona zərurət vaxtı deyilir.

Əgər namazı gecikdirmək məcburiyyətində olsa, gün batmamışdan əvvəl qıldığı təqdirdə, bu namazda problem yoxdur.

3. Bu namazlardan üçüncüsü məğrib namazıdır.

Məğrib namazının vaxtı günəşin batmasından qırmızı şəfəqin batmasına qədərdir. İlk vaxtına tezləşdirib qılmaq sünnətdir. Yalnız müzdəlifə gecəsində ehramda olanlardan

[3] əl-Bəqərə surəsi, 238-ci ayə

başqa. Onlar üçün namazı gecikdirib işa namazı ilə birgə cəm şəklində qılmaq sünnətdir.

4. Bu namazlardan dördüncüsü işa namazıdır.

İşa namazının vaxtı qırmızı şəfəqin batmasından başlayır, gecə yarısına kimi davam edir. Çətinlik olmadığı halda, vaxtının sonuna qədər gecikdirilməsi müstəhəbdir. O namazdan əvvəl yatmaq ondan sonra faydasız söhbət etmək bəyənilmir.

Abu Bərzədən gələn hədisdə buyurur ki:

"Peyğəmbər ﷺ İşa namazından əvvəl yatmağı sonra danışmağı xoşlamazdı".[4]

5. Bu namazlardan beşincisi sübh namazıdır.

Sübh namazının vaxtı ikinci sübhün açılmasından günəşin doğmasına qədərdir. İkinci sübhün açılması bilindisə, onu tez vaxtında qılmaq müstəhəbdir.

Odur ki, namazı vaxtında qılmağa həris ol. Çünki bu, Uca Allah yanında ən sevimli əməllərdəndir. Abdullah ibn Məsud deyir. Mən dedim: Ey Allahın elçisi ﷺ , hansı əməl Allaha daha sevimlidir?

O ﷺ dedi: "Vaxtında qılınan namaz".[5]

[4] Buxari 568
[5] Buxari və Muslim